SOSİOLOJİ TƏDQİQATLAR

UOT 101.1
https://doi.org/10.30546/ifs.2026.2.47.1330

AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TƏTBİQ OLUNAN İNNOVATİV ŞƏHƏRSALMA MODELİ

Təhminə Ağakişiyeva
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
tahmina.aghakishiyeva@gmail.com
https://orcid.org/0009-0004-4866-9640

«Memarlıq xalqın maddi və mənəvi dəyərlərinin təzahür formasıdır»
Heydər Əliyev.

Xülasə. Məqalədə azad olunmuş ərazilərdə tətbiq olunan innovativ şəhərsalma modelinin xüsusiyyətləri və inkişaf istiqamətləri araşdırılır. Tədqiqatda müasir urbanistik yanaşmalar, dayanıqlı inkişaf strategiyaları və “ağıllı şəhər”, “ağıllı kənd” texnologiyalarının tətbiqi məsələləri təhlil edilir. Eyni zamanda, ərazi planlaşdırılmasında ekoloji balansın qorunması, mədəni-tarixi irsin bərpası və müasir infrastrukturun formalaşdırılması məsələlərinə xüsusi diqqət yetirilir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, azad olunmuş ərazilərdə həyata keçirilən şəhərsalma siyasəti innovativ texnologiyaların tətbiqi və kompleks planlaşdırma prinsipləri əsasında dayanıqlı şəhər mühitinin formalaşdırılmasına xidmət edir.

Məqsəd: Azad olunmuş ərazilərdə tətbiq olunan innovativ şəhərsalma modelinin xüsusiyyətlərini və müasir texnologiyalar vasitəsilə milli-mədəni irsin qorunması əsasında formalaşan şəhərsalma konsepsiyasını təhlil etmək.

Metodologiya: İşin metodoloji əsası tarixilik, konkretlik, məntiq, induksiya, deduksiya, habelə fərqləndirmə, təhlil və sintez prinsiplərinə əsaslanır.

Elmi yenilik: Tədqiqatın elmi yeniliyi azad olunmuş ərazilərdə formalaşan innovativ şəhərsalma modelinin kompleks şəkildə araşdırılmasında, “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının tətbiqinin şəhər mühitinin davamlı inkişafına təsirinin müəyyən edilməsində, həmçinin müasir texnologiyalarla milli memarlıq ənənələrinin sintezinin elmi əsaslandırılmasında ifadə olunur.

Fəlsəfi aspekt: Məqalənin əsas fəlsəfi ideyası keçmişlə gələcəyin, milli-mənəvi dəyərlərlə müasir texnologiyaların və insan-təbiət münasibətlərinin vəhdətini göstərir. Şəhərsalma yalnız tikinti deyil, insan üçün rahat, təhlükəsiz və dayanıqlı həyat mühiti yaratmaq vasitəsi kimi təqdim olunur.

İdeoloji aspekt: Əsas ideya işğaldan azad edilmiş ərazilərin bərpası, “Böyük qayıdış”, milli-mədəni irsin qorunması və Azərbaycanın müasir, güclü və innovativ dövlət kimi inkişafının vurğulanmasıdır.

Estetik aspekt: Yeni şəhər və kəndlərin müasir memarlıqla milli memarlıq ənənələrinin sintezi əsasında qurulması, təbiət və şəhər mühitinin harmoniyasının yaradılması əsas estetik xətti təşkil edir. Məkanın funksionallığı ilə yanaşı, onun vizual harmoniyası, estetik bütövlüyü və milli kimliyi qorunur.

Xüsusilə, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələri şəhərsalmanın innovativ aspektlərini ön plana çıxarır. Burada enerji səmərəliliyi, yaşıl texnologiyalar, rəqəmsal idarəetmə və sosial inklüzivlik əsas prinsiplər kimi çıxış edir.

Açar sözlər: Azərbaycan, azad olunmuş ərazilər, şəhərsalma, milli – mənəvi dəyər, konsepsiya, bərpa, “Ağıllı şəhər”, “Ağıllı kənd”.

AN INNOVATIVE URBAN PLANNING MODEL APPLIED IN RELEASED TERRITORIES

Tahmina Aghakishiyeva

Abstract. The article examines the main principles and development directions of the innovative urban planning model implemented in the liberated territories. The study analyzes modern urban

planning approaches, sustainable development strategies, and the application of “Smart City” and “Smart Village” technologies. Particular attention is given to maintaining ecological balance, restoring historical and cultural heritage, and developing modern infrastructure within spatial planning processes. The research concludes that the implemented urban planning model contributes to the formation of a sustainable urban environment through the integration of innovative technologies and comprehensive planning principles

Purpose: To analyze the features of the innovative urban planning model applied in the liberated territories as well as the urban planning concept based on the preservation of national and cultural heritage through modern technologies.

Methodology: The methodological basis of the work includes the principles of historicism, concreteness, logic, induction, deduction, and analogy, as well as differentiation, analysis, and synthesis.

Scientific novelty: The scientific novelty of the study lies in the comprehensive analysis of the model of innovative urban planning in the liberated territories, the identification of the impact of the concepts of “Smart City” and “Smart Village” on the sustainable development of urban environments, and the scientific justification of the synthesis of national architectural traditions with modern technologies.

Philosophical aspect: The main philosophical idea of the article is the unity of the past and the future, national and spiritual values and modern technologies, as well as the relationship between people and nature. Urban planning is viewed not merely as construction, but as a means of creating a comfortable, safe, and sustainable living environment for people.

Ideological aspect: The main ideological idea is connected with the reconstruction of the liberated territories, the implementation of the “Great Return” concept, the preservation of national and cultural heritage, and the development of Azerbaijan as a modern, strong, and innovative state.

Aesthetic aspect: The aesthetic concept is based on the harmonious combination of modern architecture with national architectural traditions, as well as on creating harmony between the natural environment and the urban space. In particular, the “Smart City” and “Smart Village” projects implemented in the territories liberated from occupation highlight the innovative aspects of urban planning. Here, energy efficiency, green technologies, digital governance, and social inclusiveness serve as the key principles.

Keywords: Azerbaijan, liberated territories, urban planning, national and spiritual value, concept, restoration, “Smart city”, “Smart village”.

ИННОВАЦИОННАЯ МОДЕЛЬ ГОРОДСКОГО ПЛАНИРОВАНИЯ, ПРИМЕНЯЕМАЯ НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ

Тахмина Агакишиева

Резюме. В статье рассматриваются основные принципы и направления развития инновационной модели градостроительства, реализуемой на освобождённых территориях. Особое внимание уделяется анализу современных урбанистических подходов, стратегий устойчивого развития, а также внедрения технологий «Умного города» и «Умного села». Также исследуются вопросы сохранения экологического баланса, восстановления историко-культурного наследия и формирования современной инфраструктуры в процессе территориального планирования. В результате исследования установлено, что применяемая модель градостроительства способствует формированию устойчивой городской среды на основе инновационных технологий и комплексного подхода к планированию.

Цель исследования - проанализировать особенности инновационной модели градостроительства, применяемой на освобожденных территориях, а также концепции градостроительства, сформированной на основе сохранения национально-культурного наследия посредством современных технологий.

Методология. Методологическая основа работы базируется на принципах историзма, конкретности, логичности, индукции, дедукции и аналогии, а также дифференциации, анализа и синтеза.

Научная новизна исследования заключается в комплексном исследовании модели инновационного градостроительства, формирующейся на освобожденных территориях; в

выявлении влияния применения концепций «Умный город» и «Умное село» на устойчивое развитие городской среды, а также в научном обосновании синтеза национальных архитектурных традиций с современными технологиями.

Философский аспект. Основная философская идея статьи заключается в единстве прошлого и будущего, национально-духовных ценностей и современных технологий, а также человека и природы. Градостроительство рассматривается не только как строительство, но и как средство создания комфортной, безопасной и устойчивой среды для жизни человека.

Идеологический аспект. Основная идея связана с восстановлением освобожденных территорий, реализацией концепции «Великого возвращения», сохранением национального и культурного наследия, а также развитием Азербайджана как современного, сильного и инновационного государства.

Эстетический аспект. Основу эстетической концепции составляет гармоничное сочетание современной архитектуры с национальными архитектурными традициями, а также создание гармонии между природой и городской средой.

Проекты «умного города» и «умного села», реализуемые на освобожденных от оккупации территориях, выдвигают на первый план инновационные аспекты градостроительства. Здесь энергоэффективность, «зеленые» технологии, цифровое управление и социальная инклюзивность выступают в качестве основных принципов.

Ключевые слова: Азербайджан, освобожденные территории, градостроительство, национально-духовные ценности, концепция, восстановление, «Умный город», «Умное село».

Giriş

Prezident İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsinin 109-cu bəndini rəhbər tutaraq, Azərbaycanın şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin qorunması məqsədilə 2026-cı ilin Azərbaycan Respublikasında «Şəhərsalma və memarlıq» ili elan edilməsi haqqında Sərəncam imzalayıb.

“Avropa və Asiyanın mədəniyyətləri qovşağında yerləşən ölkəmizdə dünya memarlığının ən yaxşı ənənələri ilə milli xüsusiyyətlərin sintezini özündə əks etdirən güclü memarlıq məktəbi təşəkkül tapmışdır. Öz sələflərinin zəngin ənənələrini davam etdirən Azərbaycan memarları yeni axtarışları, kəşfləri və nailiyyətləri ilə bu gün də xalqımıza sevinc bəxş edirlər. Onlar ölkəmizin digər yaradıcı ziyalıları ilə birlikdə bütün postsovet məkanına xas olan mürəkkəb sosial-iqtisadi problemlərin həlli ilə yanaşı, milli-mənəvi dəyərlərin qoruyub saxlanılmasında yaxından iştirak edirlər. Məhz onların əməyi sayəsində ölkəmizin şəhər və rayonlarının, xüsusilə paytaxtımızın siması son illərdə yaxşılığa doğru xeyli dəyişmişdir. Bu müddət ərzində əldə edilmiş nailiyyətlər bir tərəfdən ölkə iqtisadiyyatında baş verən müsbət dəyişikliklərlə bağlı olmuşdursa, digər tərəfdən Azərbaycan memarlığının güclü potensialını bir daha ortaya qoymuşdur” [1, s.5.].

Qeyd etmək lazımdır ki, Azərbaycan ölkəsinin memarlıq və şəhərsalma mədəniyyətinin qədim, ecazkar və heyrətamiz ənənələri vardır. Memarlarımızın yaratdığı və bərpa etdiyi abidələr, körpülər, şəhərlər, xalqımızın mənəvi zənginliyini əks etdirərək dünya xalqlarına nümayiş etdirir. “Dövrümüzün memarlığı kökündən yeni bir fəlsəfədir. Onun qlobal mənası kiminsə eqosuna əbədi abidələr yaratmaq deyil, funksionallıq, rahatlıq, rahatlıq və gözəlliyin mürəkkəb kvintessensiyasını ifadə etməkdir. Bu fəlsəfə emosional ifadəlilik, iqtisadiyyat və ekoloji mütənasiblik prinsiplərinə əsaslanır və bəşəriyyətə xidmət etməyə onun ehtiyaclarını ödəməyə yönəlmişdir” [2, c.9]. Həqiqətən də, müasir texnologiyaların dinamik şəkildə inkişaf etdiyi bir əsrdə şəhərsalma və memarlıq artıq təkcə binaların, abidələrin və yaşayış məkanlarının bərpası və inşası ilə kifayətlənmir. “Bu sahə eyni zamanda insanların həyat keyfiyyətinin yüksəldilməsi, sosial-iqtisadi inkişafın təmin olunması, ekoloji tarazlığın qorunması və dayanıqlı gələcəyin qurulması baxımından mühüm rol oynayır. Məhz bu yanaşma Azərbaycanda son illərdə, xüsusilə də azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı şəhərsalma layihələrində aydın şəkildə hiss olunur” [6, web].

Azərbaycanın Respublikasının əsas prioriteti Qarabağa “Böyük qayıdış”dır

Ali Baş Komandan İlham Əliyevin 16 noyabr 2022-ci ildə təsdiq etdiyi «Böyük qayıdış» Birinci Dövlət Proqramını rəhbər tutaraq işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı yenidənqurma və bərpa işləri sürətlə davam etdirilir. Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanaqlı sülhə, tərəqqiyə əsaslanan

və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoymuşdur.Vətən müharibəsindən sonra işğaldan azad olinmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyət-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülmüşdür. Bu ərazilərdə aparılan işlər yalnız dağıdılmış infrastrukturun bərpası ilə məhdudlaşmır, eyni zamanda insanların doğma torpaqlara qayıdışı üçün müasir, rahat və təhlükəsiz yaşayış mühitinin yaradılmasını hədəfləyir. Yeni yolların, yaşayış binalarının, məktəblərin, xəstəxanaların, sosial və mədəni obyektlərin inşası paralel şəkildə həyata keçirilir.

“Azərbaycan dövləti işğaldan azad olunmuş əraziləri ən yüksək səviyyədə bərpa etmək, dirçəltmək və regionda yeni bir regional inkişaf modeli kimi formalaşdırmaq əzmindədir” [3, s.260]. İşğaldan azad edilən torpaqlarımızda yenidənqurma və bərpa-quruculuq işlərinə xüsusi diqqətin yetirilməsi tariximizə və mənəvi varlığımıza dərin bağlılığın göstəricisidir. Hazırda azad olunmuş ərazilərdə böyük inkişafın təməlləri atılır. Artıq regionların inkişafı, əhalinin rifah halının daha da yaxşılaşdırılması üçün bir sıra mühüm layihələr həyata keçirilir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva öz çıxışlarının birində belə vurğulamışdır: “Əminliklə demək istəyirəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə biz bütün Qarabağ regionunu Azərbaycanın ən gözəl güşələrindən birinə çevirəcəyik. Burada həyat yenidən canlanacaq, bütün rayonlarımız bərpa olunacaq, vətəndaşlarımız doğma torpaqlarında yaşayacaq və yaradacaqlar". Vurğulamaq zəruridir ki, Azərbaycan Respublikasının Prezidenti 2 fevral 2021-ci il tarixində “Azərbaycan 2030: sosial-iqtisadi inkişafın Milli Prioritetləri” sənədinin təsdiq olunması barədə imzaladığı sərəncamda ölkənin yaxın onillik üçün beş milli inkişaf prioriteti müəyyənləşdirilmişdir:

1. Dayanıqlı artan rəqabət qabiliyyətli iqtisadiyyat;
2. Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. İşğaldan azad olunmuş ərazilərə “Böyük qayıdış”;
5. Təmiz ətraf mühit və “Yaşıl artım” ölkəsi [7, web]. Məxsusi olaraq vurğulamaq vacibdir ki, işğaldan azad olunmuş ərazilərə “Böyük qayıdış” Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuşdur. Həqiqətən də, bu gün Azərbaycan keçmiş məcburi köçkünlərin "Böyük qayıdış" layihəsini uğurla həyata keçirir. 2022-ci ildən başlayaraq bu günə qədər keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə, öz ata-baba torpaqlarına "böyük qayıdışı" davam edir. İşğaldan azad edilmiş ərazilərin sürətli bərpası, "Böyük qayıdış" I Dövlət Proqramının uğurla həyata keçirilməsi Prezident İlham Əliyevin irəli sürdüyü siyasətin, Azərbaycan dövlətinin gücünün və qüdrətinin əyani göstəricisidir.

Məlum olduğu kimi, rəqəmsal sektorlar ən sürətlə inkişaf edən sahələrdən biridir. Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası" ən çox rəqəmsal texnologiyalara yönəlib. Dövlət başçısı çıxışlarından birində qeyd edib ki, azad edilmiş torpaqlar yüksək texnoloji inkişaf sahələri olmalıdır. Bütün bunlar üçün ilk növbədə azad edilmiş torpaqları məhz yüksək texnologiyalar istiqamətində inkişaf etdirməyə imkan verəcək baza yaratmaq lazımdır. Ölkənin uğurlu coğrafi mövqeyi və təbii sərvətləri, insan potensialı, eləcə də son illər cənab Prezident tərəfindən qəbul edilən dövlət proqramları, fərman və sərəncamlar bunun üçün bütün imkanları yaradır. Daha bir vacib məqamı da qeyd etmək lazımdır ki, işğaldan azad edilmiş torpaqlara “Böyük qayıdış” üzrə I Dövlət Proqramında "Smart City", "Smart Village" və "The green energy zone" şəhərsalma üzrə nəzərdə tutulan əsas konsepsiyalardır. Layihənin məqsədi rahat yaşayış şəraiti yaratmaq və rayonun sosial-iqtisadi inkişafını təmin etməkdir. Xatırladaq ki, 2021-ci ilin may ayında Prezident İlham Əliyev Azərbaycanın işğaldan azad edilmiş ərazisində «Yaşıl Enerji» zonasının yaradılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. "Ağıllı şəhər" və"Ağıllı kənd" ("Smart City","Smart Village") konsepsiyasının tətbigi görüləcək işlərin fundamental göstəricisindən biridir. “Ağıllı şəhərlər insanlara alternativ, daha yaxşı və daha etibarlı bir reallıq təqdim edə bilirlər, yəni ehtiyac duyduqları – və təcili olaraq – yalnız insanın daha tam fiziki və intellektual özünü həyata keçirməsi üçün deyil, həm də planetimizin canlılığını qorumaq üçün” [4, стр 445]. Bu baxımdan qeyd etmək lazımdır ki, “Ağıllı şəhər/kənd” konsepsiyası əhalinin sağlamlığının, təhlükəsizliyinin, təhsilinin və məşğulluğunun mühafizə səviyyəsinin hərtərəfli yüksəldilməsi, istirahət üçün əlavə imkanların yaradılması və vətəndaşların rifahının davamlı möhkəmləndirilməsi üçün müasir informasiya texnologiyaları və

kommunikasiyalardan istifadəyə əsaslanır. Bir sözlə, “ağıllı şəhər / kənd” daxili şəhər proseslərini idarə etməyi asanlaşdırır və sakinlərin həyatını daha rahat və təhlükəsiz edir.

Məlumdur ki, azad edilmiş torpaqlarımız bərpa olunan enerji ehtiyatları ilə zəngindir. Belə ki, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonları günəş enerjisi potensialına, Laçın və Kəlbəcərin dağlıq əraziləri külək və geotermal, Tərtər, Bazarçay, Həkəriçay və regionun kiçik çayları isə böyük hidroenergetika potensiala malikdir. Azad edilmiş ərazilərdəki bütün şəhər və kəndlər "yaşıl" enerjidən istifadə üçün nəzərdə tutulub. «Hazırda Qarabağın «Yaşıl enerji» zonasına çevrilməsi istiqamətində müvafiq işlər yerinə yetirilir. Bu regionda bərpa olunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyaların tətbiqi və digər məsələləri əhatə edəcək «yaşıl zona», yaxud «yaşıl məkan» konsepsiyasının hazırlanmasına hələ Vətən müharibəsindəki şanlı qələbəmizdən az sonra başlanmışdır» [5, s.226]. Qeyd etmək vacibdir ki, azad edilmiş ərazilərdəki bütün şəhər və kəndlər "yaşıl" enerjidən istifadə üçün nəzərdə tutulub. Bununla əlaqədar Zəngilan rayonunun Ağalı (Ağalı –1, Ağalı–2, Ağalı–3) kəndində "Smart City", "Smart Village" konsepsiyası çərçivəsində artıq evlərin tikintisi başa çatdırılıb. Şübhəsiz ki, Ağalıdakı "Smart Village" artıq Şərqi Zəngəzur bölgəsinin mərkəzi və nümunəvi yaşayış məntəqələrindən biridir. Bu səbəbdən də Ağalı kəndindəki "Smart Village" bütün dünyada Azərbaycan modeli kimi qəbul edilə bilər. "Beləliklə, ölkənin enerji sistemi tarixində ilk dəfə olaraq Qarabağ və Şərqi Zəngəzur regionlarının elektrik enerjisinə olan tələbatı 100 faiz "yaşıl" enerji hesabına təmin edilir, qalan həcm isə ehtiyacdan artıq olaraq ölkənin enerji sisteminə ötürülür. Perspektivli layihələr də nəzərə alınarsa, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində həyata keçirilən "Yaşıl enerji” layihələrinin ümumi gücü 1100 MVt təşkil edir ki, bu da regionun cari enerji tələbatından 12-15 dəfə çoxdur" [8, web]. Ağdam, Kəlbəcər, Cəbrayıl, Qubadlı rayonunda, eləcə də Füzuli rayonunun Dövlətyarlı kəndində bu məsələ ilə bağlı tikinti işləri aparılır. Kəndin sosial infrastrukturu qurulur. Tam orta məktəb, uşaq bağçası, həkim məntəqəsi, eləcə də inzibati və çoxfunksiyalı binalar inşa edilir. Bununla yanaşı, qazanxana sistemi, transformator məntəqəsi, kommunal xətlər – elektrik, rabitə, qaz, su və kanalizasiya sistemləri və digər mühəndis qurğularının da quraşdırılması nəzərdə tutulur. Aparılan araşdırmaların nəticələri sübut edir ki, “Ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyalarının tətbiqi, müasir infrastrukturun yaradılması, alternativ enerji mənbələrindən istifadə və ekoloji məsələlər, Azərbaycanın bu sahədə modern və düşünülmüş model formalaşdırdığını nümayiş etdirir. Azərbaycan Respublikasının şəhərsalma modelinin əsas göstəricilərindən biri də yuxarıda qeyd olunan önəmli məsələlərin vahid və məqsədyönlü dövlət siyasəti çərçivəsində icra olunmasıdır. Yol və kommunikasiya şəbəkələri, enerji və su təsərrüfatı, sosial obyektlər və yaşayış obyektləri bir-biri ilə uzlaşdırılaraq kompleks şəkildə planlaşdırılır. Artıq planlaşdırma mərhələsindən etibarən əhalinin gündəlik ehtiyaclarının, iqtisadi imkanlarının və ətraf mühitin qorunması məsələlərinin diqqət mərkəzində saxlanıldığı aydın şəkildə nəzərə çarpır. Sevindirici haldır ki, regionda həyata keçirilən ilk böyük layihələrdən "Əhmədbəyli-Füzuli-Şuşa" marşrutu üzrə 4-6 zolaqlı, uzunluğu 101 km. olan "Zəfər yolu” və Füzuli Beynəlxalq Hava Limanının tikintisi olub. Bu infrastruktur çox qısa müddətdə, yəni 8 ay ərzində ən yüksək beynəlxalq standartlara uyğun qurulub. Füzuli Hava Limanı "Qarabağın dünyaya qapısı"hesab olunur. Bu hava limanının açılışı 26 oktyabr 2021-ci ildə Füzuli Beynəlxalq Hava Limanına enən ilk dövlət başçısı olan Türkiyə Prezidenti Rəcəb Tahir ərdoğanın iştirakı ilə baş tutdu. Bu hava limanı ilə yanaşı, 202─ci ilin aprelində Zəngilanda beynəlxalq hava limanının təməlqoyma mərasimi keçirilib və 2022-ci ildə bu aeroportun açılışı olub. Eyni zamanda, Laçın rayonunda hava limanı salınıb. Laçın Hava Limanı Şərqi Zəngəzur iqtisadi rayonunun ərazisində, Zəngilan rayonundan sonra tikilmiş ikinci hava limanıdır. Qeyd etmək vacibdir ki, bu kimi məsələlər gələcəkdə azad edilmiş torpaqların davamlı inkişafına şərait yaratmaqla yanaşı, keçmiş məcburi köçkünlərin doğma torpaqlara təhlükəsiz şəkildə qayıtmasını təmin edir. Bu baxımdan qeyd etmək lazımdır ki, bərpa edilmiş, çiçəklənmiş Qarabağ torpaqları Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizə bir abidə olacaq.

Nəticə/Conclusion

Yekun olaraq **b**öyük qürur hissi ilə qeyd etmək lazımdır ki, 2026-cı ilin may ayının 17-dən 22-dək Bakı şəhəri şəhərşünaslığın dünya paytaxtına çevriləcək. BMT-nin təqvimində ən genişmiqyaslı tədbirlərdən biri olan Ümumdünya Şəhərsalma Forumunun (WUF–World Urban Forum) 13-cü sessiyasının ölkəmizin paytaxtında keçirilməsi, təbii ki, böyük sevinc doğurur. Belə ki, ölkəmizin, vətəndaşlarımızın rifahının gücləndirilməsi dövlət siyasətinin öndə gedən prinsiplərindən biridir. World Urban Forumu (WUF), Azərbaycanın azad olunmuş ərazilərdə formalaşdırdığı yeni şəhərsalma modelini

beynəlxalq ictimaiyyətə təqdim etmək, təcrübə mübadiləsi aparmaq və ölkəmizin bu sahədə regional lider kimi mövqeyini daha da gücləndirmək baxımından önəmli platforma olacaq. Beləliklə, azad olunmuş ərazilərdə həyata keçirilən şəhərsalma siyasəti göstərir ki, müstəqil, qalibiyyətə nail olan Azərbaycan Respublikası yalnız keçmişi həyata qaytarmaq uğrunda mübarizə aparmır, eyni zamanda parlaq gələcəyi düşünərək dinamik şəkildə irəli addımlayır.

İstifadə olunmuş ədəbiyyat

1. R. Ağazadə, Yusif İbrahimli. «Azərbaycan memarlığı: inkişaf yollarında» Bakı, «Şərq – Qərb», 384 səh.; 2013
2. Ş. Məmmədov «Müasir dünya memarlığı»//Bakı: «Füyuzat», 496 s., 2025
3. N.Müzəffərli, Musayev A., Muradov A., Qənbərov f., Zeynalov M., Əhmədov B., /Monoqrafiya – «Postkonflikt ərazilər: iqtisadi potensial və müqayisəli üstünlüklər» // Bakı, «AR İqtisadiyyat Nazirliyi», «ETN İqtisadiyyat İnstitutu», 297səh.; 2023
4. Бретт Кинг – «Эпоха дополненной реальности» (2016)//Бретт Кинг, А.Лайтман, Дж. П. Рангасвами, Э.Ларк [пер.с англ.] // Москва, «Олимп – Бизнес», 528 стр.; 2020
5. E.Quliyev «Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu» //Monoqrafiya. Bakı, «Kooperasiya» nəşriyyatı, 320səh.; 2023.
6. https://azertag.az/xeber/sehersalma_ve_memarliq_ili_muasir_inkisafin_ve_dayaniqli_gelecey in_strategiyasi-3934639 – «Şəhərsalma və Memarlıq İli: Müasir inkişafın və dayanıqlı gələcəyin strategiyası».
7. htss://president.az/az/articles/view/50474 – «Azərbaycan 2030: sosial – iqtisadi inkişafa dair milli prioritetlər».
8. https://www.trend.az/business/green-economy/3915631.html – «Зеленая" дорога Азербай-джана – "умный" Карабах, построенный на основе солнечной энергии».

Rəyçi: f.e.d., prof. Lalə Mövsumova